BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Sosial-siyasi elmlər seriyası 2015

## FƏLSƏFƏ

UOT 122/129

# FƏLSƏFƏ VƏ TƏBİƏTŞÜNASLIĞIN MÜNASİBƏTİNİN POZİTİVİST ANLAMI

**V.M.KƏRİMOV**
***Bakı Dövlət Universiteti***
***V.m.Karimov@yahoo.com***

*Məqalədə fəlsəfə və təbiətşünaslığın münasibətinin pozitivist anlamının mahiyyəti açılıb tənqidi surətdə təhlil olunur. Həmin bilik sahələrinin qarşılıqlı əlaqədə olduğu və bunun obyektiv əsası açılaraq göstərilir ki, bu onların tədqiqat obyektinin ümumiliyidir: həm fəlsəfə, həm də təbiətşünaslıq təbiəti öyrənir. Pozitivizmin kontizm, maxizm və neopozitivizm kimi tarixi formaları tənqidi surətdə nəzərdən keçirilərək göstərilir ki, fəlsəfə və təbiətşünaslıq ancaq qarşılıqlı əlaqədə və təsirdə müvəffəqiyyətlə inkişaf edə bilər.*

**Açar sözlər:** fəlsəfə, təbiətşünaslıq, qarşılıqlı əlaqə, pozitivizm, kontizm, maxizm, neopozitivizm, dialektik-materialist anlam

İnsan idrakının fəlsəfə və təbiətşünaslıq kimi iki mühüm sahəsi qarşılıqlı əlaqədə və təsirdə yaranıb inkişaf etmiş, bir-birlərini zənginləşdirmişlər. Bununla belə həmin bilik sahələrinin qarşılıqlı əlaqəsi və münasibəti uzun müddət düzgün başa düşülməmişdir. Həmin münasibət yalnız bu bilik sahələrinin uzun sürən inkişafı nəticəsində yaranmaqla müasir təbiətşünaslığın həqiqi fəlsəfi-metodoloji əsası kimi çıxış edən dialektik-materialist fəlsəfədə düzgün aydınlaşdırılmışdır.

Fəlsəfə və təbiətşünaslığın münasibətinin düzgün anlamını verən dialektik materializmə qədər ona uzun müddət naturfəlsəfi baxış hakim olmuşdur. Məlum olduğu kimi, təbiət haqqında biliklərin son dərəcə aşağı səviyyədə olduğu qədim dövrdə dünya haqqında təbii-elmi təsəvvürləri də özündə ehtiva edən ümumi bir elm – naturfəlsəfə mövcud olmuşdur. Naturfəlsəfə daxilində fəlsəfə və təbii-elmi təsəvvürlər, sonralar onlar əsasında yaranıb inkişaf edən təbiət elmləri arasında fəaliyyət sahəsi aydın şəkildə ayrılmamış, həmin bilik sahələrinin tədqiqat predmetləri hələ müəyyənləşməmişdi. Buna görə də təbiət haqqında biliklərin artıq müəyyən dərəcədə inkişaf etdiyi dövrdə yaşayan ilk yunan filosofları eyni zamanda müxtəlif təbiət elmləri ilə də məşğul olmuş, onların dünyagörüşündə fəlsəfi baxışlar və təbii-elmi təsəvvürlər naturfəlsəfədə çulğaş-

mış şəkildə mövcud olmuşdur.

Fəlsəfə və təbiətşünaslığın münasibətinin naturfəlsəfi və dialektik-materialist anlamlarını artıq əvvəllər təhlil etdiyimizdən, həmin məsələ ilə maraqlananları oraya (9, 10) göndərməklə bu məqalədə onun pozitivist anlamını verməyə çalışacayıq. Həmin anlam naturfəlsəfənin «xarabaları» üzərində meydana çıxdığından qısaca olaraq bunu qeyd etməklə kifayətlənirik ki, konkret təbiət elmlərinin o qədər də inkişaf etmədiyi, təbiətşünaslığın başlıca olaraq faktlar toplamağa məşğul olduğu, hadisələr arasındakı real əlaqələri açmağa qadir olmadığı və olnları əqli quraşdırmalarla əvəz etdiyi dövrdə dünyanın ümumi mənzərəsini verməyə çalışan və bu səbəbdən də bütün bilik sahələrini əhatə edən «elmlər elmi» olmaq iddiası ilə çıxış edən naturfəlsəfə təbiət elmlərinin yeganə düzgün fəlsəfəsi kimi çıxış edirdi. Dünyanın müxtəlif elmlər tərəfindən öyrənilən sahələri arasındakı əlaqələrin hələ məlum olmadığı dövrdə dünyanın bütöv elmi-fəlsəfi mənzərəsini verməyə çalışan naturfəlsəfə bu zaman həmin əlaqələri xəyali əlaqələrlə əvəz edir, xüsusi tədqiqat tələb edən məsələlərə əqli quraşdırmaların köməyilə cavab verməyə çalışırdı.

İdrak tarixi göstərir ki, öz elmi fəaliyyətlərində təbiətşünaslığın nailiyyətlərinə əsaslanan materialist naturfəlsəfənin nümayəndələri Demokrit, Qassendi, İ.Nyuton, C.Bruno, Lomonosov, Laplas, Dalton, Darvin və b., habelə Hegel kimi dialektik mütəfəkkirlər dünya haqqında elmin inkişafını xeyli qabaqlayan və fəlsəfi dünyagörüşünü zənginləşdirən bir sıra mütərəqqi ideyalar irəli sürmüşlər.

Lakin konkret təbiət elmlərinin inkişafı dərinləşdikcə, xüsusilə fizikanın daha da inkişafı, kimya, geologiya, astronomiya, biologiya elmlərinin təşəkkülü və inkişafı konkret təbii-elmi tədqiqata əsaslanmayan naturfəlsəfənin məhdudluğunu aşkara çıxararaq onun dağılmasını və aradan qaldırılmasını zəruri edirdi. Bu belə bir haldan da irəli gəlirdi ki, artıq həmin bilik sahələri arasında təbiətin özündə mövcud olan əlaqələrin aşkara çıxarılıb öyrənilməsi XIX əsrin ortalarına doğru təbiətşünaslığı başlıca olaraq faktları toplamaqla məşğul olan empirik elmdən toplanmış faktik materialların sistemləşdirildiyi, hadisələr arasındakı real əlaqələrin açıldığı nəzəri elmə çevrilmişdi.

Təbiətşünaslıqda baş verən və alimlərin əksəriyyətinin əsas tutduqları metafizik təfəkkür üsulunu dağıdaraq dünyaya dialektik baxışın işlənməsinə gətirib çıxaran bir sıra mühüm kəşflər sayəsində naturfəlsəfənin məhdudluğu və gərəksizliyi aşkara çıxırdı. Naturfəlsəfənin nüfuzdan düşməsi və aradan qaldırılması ilə müşayiət olunan bu mütərəqqi proses dialektikcəsinə düşünə bilməyən təbiətşünaslara artıq konkret elmlərin ümumiyyətlə «elmlər elmi» sayılan fəlsəfənin hökmranlığından «xilas olması» kimi görünməyə başladı. Bu zəmində ümumiyyətlə fəlsəfədən yaxa qurtarmaq pərdəsi altında çıxış edən, əslində isə təbiətşünaslıqla çıx bağlı olan materialist fəlsəfəni aradan qaldırmaq cəhdlərinin ifadəsi olan ***pozitivizm*** meydana çıxdı və o dövrün filosofları, xüsusilə təbiətşünasları arasında geniş yayılmağa başladı. Bunun da başlıca səbəbi o idi ki, özünü «elmlər elmi» kimi qələmə verməklə konkret elmlərin nailiyyətlərinə

məhəl qoymayan, əsasən əqli quraşdırmalarla məşğul olan naturfəlsəfəyə qarşı çıxan pozitivizmin nümayəndələri eyni zamanda təbiət elmlərinin konkret nailiyyətlərini inkar etmirdi.

Pozitivizmin banisi fransız filosofu Oqyust Kont (1798-1857) olduğundan onun ilkin forması kontizm adlanır. Pozitivizmin yaranması və inkişafında ingilis filosofu Con Stüart Mill (1806-1873) və Herbert Spenserin (1820-1903) də xidmətləri olmuşdur. Pozitivizm mövqeyindən biliyin anriorluğu fikrinə qarşı çıxaraq idrak nəzəriyyəsi məsələlərində empirizm mövqeyindən çıxış edən C.S.Mill deduktiv biliyin mümkünlüyünü qəbul etmir. Biliklərin induksiya – xüsusidən ümumiyə keçmək yolu ilə əldə edildiyini bildirirdi. Pozitivizm fəlsəfəsinin metodunun işlənib hazırlanmasına böyük diqqət yetirən C.S.Mill induksiyanı belə metod hesab edirdi.

H.Spenserə görə, fəlsəfənin təsiri olmadan müstəqil surətdə inkişaf edən elmin məqsədi əldə olunan biliklər arasında vəhdət yaratmaqdır. Onun fikrincə, fəlsəfə elmin kəşf etdiyi qanunları vəhdət halında öyrənməyə çalışır.

Fəlsəfədə antifəlsəfi istiqamət kimi formalaşan pozitivizm öz inkişafında 3 mərhələdən keçmişdir: 1) kontizm, yaxud «birinci pozitivizm»; 2) empiriokritisizm, yaxud «ikinci pozitivizm (maxizm); 3) üçüncü pozitivizm, yaxud neopozitivizm.

Pozitivizmin banisi O.Kont və ardıcılları (C.S.Mill, H.Spenser) özlərini müsbət (pozitiv) bilik tərəfdarları kimi qələmə verərək bildirirdilər ki, həqiqi elm ancaq müsbət faktları öyrənir, onun tədqiqat oybekti ancaq təcrübənin verdiyi faktlardır. Həm də elmin vəzifəsi faktları təhlil, izah etmək deyil, təsvir etməkdir, alim filosofluq etməyərək aşkara çıxarılan faktları təsvir etməklə kifayətlənməlidir. Konta görə, elm və fəlsəfənin predmeti eyni bir şeydir. Xüsusi elmlərdən fərqli olaraq fəlsəfənin öz xüsusi predmeti yoxdur. O, yalnız hadisələri sadəcə təsvir etməklə kifayətlənməlidir. Kont və tərəfdarlarının fikrincə, «pozitiv elm» daxili mahiyyəti, daxili səbəbləri, daxili strukturu açmağa çalışmamalıdır, onun vəzifəsi ancaq «bilavasitə müşahidə olunanları təsvir etməklə», habelə müşahidə olunan hadisələri bir-birilə bağlayan qanunları müəyyənləşdirməklə məhdudlaşmalıdır» (17,76).

Elmi idrakın ali pilləsi sayan O.Konta görə, elmi bilik şeylərin mahiyyətini aça bilmir, o, hadisələri ancaq təsvir edir, onların ardıcıllığında qanunauyğunluqları açır, lakin onların mahiyyətinə nüfuz edə bilməz. Burada Kont geriyə – Yum və Kantın aqnostisizminə qayıdır. Konta görə, elmi bilik empirik, yəni təcrübi bilik olduğundan elm dünyanın insan tərəfindən dərk olunması, başlıca olaraq müşahidələrə əsaslanan idrak tarixidir. Biz yalnız hadisələri, yaxud duyğularımızda verilənləri müşahidə edə bildiyimizdən aydındır ki, elmi bilik hadisələrin güman olunan əsasına nüfuz edə, nə onların mahiyyətinə, nə də ilkin, sonuncu səbəblərilə iş görə bilməz. Buna görə, öz xarakteri etibarilə elmi bilik əksərən təsviri bilikdir. Kont özu belə deyir: «həqiqi pozitivist ruh başlıca olaraq, hadisələrin ilkin və son səbəblərinin öytrənilməsinin onların sarsılmaz qanunlarının öyrənilməsi ilə əvəz olunmasından, başqa sözlə, **niyə** sözünün **necə**

sözü ilə əvəz olunmasından ibarətdir» (25, 38). Əslində qanun hadisələrin daxili, mühüm, zəruri, mahiyyət xarakterli əlaqələrini ifadə etdiyi halda Konta görə, qanun ancaq hadisələrin xarici səthi, bilavasitə müşahidə olunan, yəni hissi olaraq qavranılan əlaqələrini ifadə edir.

Fəlsəfə və xüsusi elmləri bir-birindən ayıran pozitivistlər bildirirdilər ki, elmin, o cümlədən təbiət elmlərinin ayrı-ayrı sahələrinin fəlsəfəyə ehtiyacı yoxdur və sonuncusunun konkret elmlərin işlərinə müdaxiləsi guya onların inkişafına mənfi təsir göstərir.

Xüsusi elmi problemləri ancaq fəlsəfənin həll edə biləcəyini iddia edən naturfəlsəfənin əksinə olaraq, pozitivizm əslində elmi və fəlsəfi biliyin bütün problemlərini xüsusi elmi metod və vasitələrlə həll etməyin mümkünlüyünü söyləyir və bildirirdi ki, fəlsəfənin dövrü artıq həmişəlik ötüb keçmişdir və öz problemlərini müstəqil surətdə həll etməyə qadir olan konkret elmlərin ona heç bir ehtiyacı yoxdur. Buna görə də təbiət elmləri heç bir fəlsəfəyə etina etmədən ancaq faktları toplamaq, qeydə almaq və təsvir etməklə kifayətlənməlidir. Bu səbəbdən də XIX əsrin ortalarında fəaliyyət göstərən bir çox təbiətşünaslar pozitivizmin banisi O.Kontun belə bir iddiasına şərik çıxırdılar ki, təbiət elmləri onların fövqündə duran «metafizikaya» (fəlsəfəyə) ehtiyac duymur və qarşısına çıxan bütün problemləri özünün vasitələri ilə həll edə bilər. Bu o dövrdə təbiət elmləri içərisində daha çox inkişaf etmiş olan fizika üçün xüsusilə səciyyəvi idi.

XIX əsr fiziklərinin fəlsəfəyə mənfi münasibətinin səbəbi xeyli dərəcədə elmin qarşısına çıxan konkret problemləri təbii-elmi vasitələrlə həll etmək əvəzinə çox zaman səmərəsiz olan əqli quraşdırmalarla məşğul olan naturfəlsəfəyə bəslədikləri ədavət idi. Bunu nəzərdə tutan A.Zommerfeld yazırdı: «XIX əsrdə fizika və fəlsəfə arasında kifayət qədər gərgin münasibət vardı. Əvvəlcə fizikaya onun inkişaf yolunu qabaqcadan müəyyənləşdirməkdə kömək etməkdə özünü haqlı sayan fəlsəfə üstünlük təşkil edirdi. Bu münasibətlə Şellinqi, Hegeli … xatırlamaq olar. sonra fiziklər daha inamsız oldular və hər cür fəlsəfəni rədd etməyə başladılar. Bu, məsələn, ona gətirib çıxartdı ki, R.Mayerin enerjinin saxlanması prinsipi haqqında zahirən fəlsəfi görkəmə» malik olan ilk əsər «Reddendorf Annalen»in redaktoru tərəfindən rədd edilmişdir (24, 117). Burada A.Zommerfeld «Annalen der Fhüsik» jurnalının redaktoru İ.Reddendorf tərəfindən R.Mayerin «Qüvvənin kəmiyyət və keyfiyyət cəhətdən təyini» adlı məqaləsini çap üçün qəbul etməməsi faktını nəzərdə tutur.

Bu fakt pozitivizmin elmin inkişafına mənfi təsirini aydın göstərir. əgər təbiətşünaslıq pozitivistlərin göstərdiyi yolla gedərək yalnız faktları toplamaq və təsvir etməklə məşdudlaşsaydı, onda murəkkəb hadisələri və prosesləri dərindən təhlil və şərh etmək, şeylərin mahiyyətinə nüfuz etmək onun vəzifəsinə daxil olmamalı idi. Çünki pozitivizmə görə, elmin vəzifəsi ancaq müşahidə və təcrübənin verdiyi empirik materialları toplamaq, qənaətbəxş və səmərəli şəkildə qaydaya salmaq, sistemləşdirməklə kifayətlənməkdir. Məsələn, həmin mövqedən çıxış edən fransız fiziki, filosofu və elm tarixçisi P.Dühem (1861-1916) yazırdı ki, «nəzəri fizika şeylərin reallığını dərk etmir, o, ancaq qavrayışa

müyəssər olan hadisələri işarə və simvolların köməyilə təsvir etməklə məhdudlaşır, o, bizim qavrayışlarımıza müyəssər olan hadisələr arasındakı cisimlərin həqiqi xassələrini görməyə qabil deyildir» (5, 137).

Təbiətşünaslığın vəzifəsinin belə müəyyənləşdirilməsi və nəzəri təfəkkürə etina olunmaması aydın göstərir ki, pozitivizm məhdud empirizmin formalarından biridir. Əgər təbiətşünaslığın inkişafı pozitivistlərin göstərdikləri yolla getsəydi, onda öz inkişafında bir neçə əsr geriyə – elmlərin faktlar toplamaq və qeydə alıb təsvir etməklə məşğul olduğu empirizm dövrünə qayıtmalı olardı. Həm də təbiətşünaslığın inkişafının ilk pillələrində faktların toplanması ilə bağlı olan empirizm o zaman təbiətşünaslığın və elmi idrakın xüsusiyyətindən və ümumi səviyyəsindən irəli gəlməklə zəruri idisə, təbiətşünaslığın artıq yeni, mühüm ümumiləşdirmələr etmək dövrünə qədəm qoyduğu və tədricən nəzəri təbiətşünaslığa çevrildiyi XIX əsrin ikinci yarısında bu elmi idrakı geriyə çəkmək olub, mürtəce xarakter daşıyırdı. Çünki empirik təbiətşünaslığın özü də nəzəri-fəlsəfi təfəkkürsüz müvəffəqiyyətlə inkişaf edə bilməz. Bu münasibətlə F.Engelsin aşağıdakı sözlərini misal gətirmək yerinə düşər: «Hər cür nəzəri təfəkkürə qarşı nə qədər etinasızlıq göstərilsə də hər halda nəzəri təfəkkür olmadan təbiətin heç ikicə faktını da bir-birilə əlaqələndirmək və ya onların arasında olan əlaqəni başa düşmək mümkün deyildir… Nəzəriyyəyə qarşı etinasızlıq göstərilməsi isə özlüyündə aydın olduğu kimi, bir naturalist kimi düşünməyə və deməli, yanlış düşünməyə doğru aparan ən müstəqil yoldur» (6, 41).

Məlumdur ki, faktlar elmin əsasıdır və onlar böyük rus fizioloqu İ.P.Pavlovun qeyd etdiyi kimi (19,50-51) alim üçün hava və su qədər zəruridir. Bununla belə özlüyündə faktlar hələ elm deyildir. Buna görə faktik materialların toplanması hələ kifayət deyildir və idrak üçün onlardan bacarıqla istifadə etmək lazımdır. A.Puankare yazmışdır: «Alim faktları təşkil etməlidir; ev kərpiclərdən tikildiyi kimi, elm də faktlardan düzəldilir. Həm də kərpic topası evi təşkil etmədiyi kimi təkcə faktların quruca toplanması da hələ elmi təşkil etmir….» (21, 141), həm də Tuankarenin fikrincə, alimi hər cür faktlar deyil, ancaq gec-tez qanunauyğunluqların aşkara çıxarılmasına gətirib çıxaran faktlar maraqlandırır. Buna görə də artıq XIX əsrin ortalarından etibarən elmdə yaranmış şəraitdə alimlərin ən mühüm vəzifəsi toplanmış olan çoxlu faktları təsvir etməklə yanaşı sistemləşdirmək, izah etmək, qanunauyğunluqları açmaqdan ibarətdir. Odur ki, elmi idrakın faktlar toplamaq və onları təsvir etməklə məşğul olan empirik səviyyəsi ilə məhdudlaşmayaraq idrakın daha yüksək olan sonrakı pilləsinə – faktların izah olunması, mənalarının açılması, qanunauyğunluqlarının aşkara çıxarılması ilə məşğul olan nəzəri təfəkkürə keçilməsini tələb edir. Nəzəri təfəkkür isə yalnız qabiliyyət şəklində anadangəlmə bir xassədir və həmin qabiliyyət inkişaf etdirilməli, təkmilləşdirilməlidir. Lakin özlüyündə aydındır ki, insanın nəzəri təfəkkürünün, fəlsəfi baxışlarının inkişafı dövrün, ictimai mühitin təsiri altında gedir. Bu prosesdə fəlsəfi dünyagörüşünə, daha dəqiqi gerçəkliyi doğru-düzgün əks etdirən dialektik-materialist fəlsəfəyə yiyələnmək zərurəti doğur.

Konkret təbiət elmləri ilə fəlsəfənin həqiqi münasibətini anlamayan kontizmin əsas postulatı fəlsəfəni elmə müncər etmək olduğundan onun nümayəndələrinin bu cəhdi fəlsəfənin predmetsizləşdirilməsi ilə nəticələnmişdi. Həmin baxışa görə, özlüyündə fəlsəfə olan elm özünün spesifik elmi problemlərilə yanaşı əslində yalnız fəlsəfənin həll etməli olduğu ümumnəzəri-fəlsəfi problemləri həll edə bilər və həll etməlidir. Buna görə də elmlə yanaşı fəlsəfəyə ehtiyac yoxdur. Kontun təlimində «pozitiv» və «elmi» anlayışları sinonim kimi işlədilirdi.

Fəlsəfə və təbiətşünaslığın münasibətinə pozitivist baxış, yəni hər bir təbiət elminin öz-özlüyündə fəlsəfə olduğu, onun heç bir xüsusi fəlsəfəyə möhtac olmamasına dair elmi dairələrdə geniş yayılmış və özünə çoxlu tərəfdarlar toplamış baxış o dövrdə fəlsəfənin tədrisinə, onun təhsili məsələsinə mahiyyətcə zərərli olan münasibətə səbəb olmuşdu. Bunu XIX əsrin ortalarında Rusiyada Moskva Universitetinin tarixində fəlsəfənin tədrisinə münasibətin nümunəsində aydın görmək olar. MDU-nun Fəlsəfə fakültəsinin «Rus fəlsəfəsi tarixi» kafedrasının professoru Aleksey Teretyeviç Pavlovun «Moskva Universitetində fəlsəfi təhsilin tarixinə dair» adlı məqaləsində (18, 113) düzgün olaraq fəlsəfə təhsilinin universitet təhsilinin ayrılmaz hissəsi olduğunu qeyd etməklə göstərir ki, Moskva Universiteti yaradılarkən oradakı 3 fakültədən biri fəlsəfə fakültəsi olmuş və fəlsəfənin təhsili mürəkkəb yol keçmişdir. 1835-ci ildə pozitivizmin təsiri altında qəbul olunan nizamnaməyə görə, bütün təbiət fakültələrində fəlsəfənin tədrisi ləğv olunur və təbiətşünaslıq ixtisasları üzrə hazırlanan məzunlar fəlsəfi problemlərin öyrənilməsindən məhrum edilir. Həmin fakültələrdə tədris olunan təbiət elmləri ilə bağlı olan və onların inkişafı üçün mühüm əhəmiyyəti olan fəlsəfə ilə tanışlıq bir kənara qoyulur. Rusiyada fəlsfi təhsilə belə yaramaz münasibət görkəmli rus təbiətşünas alim akademik Vladimir İvanoviç Vernadskini hiddətləndirmiş və o, bu münasibətlə yazmışdır: «Elm və təbiətşünaslıq fəlsəfəsiz və metafizika (oxu: fəlsəfə-K.V.) sistemlərinin təsirindən kənarda, ona hər cür münasibətdən kənarda ancaq insan fantaziyasında mövcud olmuşdur və mövcuddur. İnsan şüurunun tarixi faktıdır ki, onlar həmişə – öz əsaslarında – fəlsəfə ilə sıx ünsiyyətdədirlər» (3, 199).

Təəssüflə qeyd etmək lazımdır ki, respublikamızın ali məktəblərində, xüsusilə təbiət elmləri üzrə fakültələrdə fəlsəfənin tədrisinə belə yaramaz və zərərli münasibətə respublikamızda da rast gəlinir. Belə ki, son illərdə görünür «yuxarılarda» kimlərəsə xoş gəlmək xatirinə universitetlərdə, xüsusilə də respublikamızın ali məktəblərinin flaqmanı olan Bakı Dövlət Universitetinin təbiət (fizika, riyaziyyat, kimya, biologiya və b.) fakültələrində «fəlsəfə» seçmə fənnlər sırasına daxil edilərək çox halda «siyasətşünaslıq» («Politologiya») fənni ilə əvəz olunmuşdur.

Fəlsəfəni digər bilik sahələrini o cümlədən təbii-elmi bilikləri öz içərisində əridən «elmlər elmi» kimi qələmə verən naturfəlsəfənin gərəksizliyinin aşkara çıxdığı dövrdə təbiətşünaslar arasında geniş yayılaraq rəğbətlə qarşılanan pozitivizmin təsiri altına düşən alimlər belə düşünür və pozitivistlər onları

inandırmağa çalışırdılar ki, elm fəlsəfədən asılı deyildir. Onların fikrincə, alimin fəlsəfi baxışları elmin inkişafına və məzmununa təsir göstərmir. Əksinə, fəlsəfənin xüsusi elmlərin işinə müdaxilə etməsi sonuncuların müvəffəqiyyətli inkişafına mane olur. Buna görə də pozitivizmin təsiri altında olan təbiətşünaslar sözdə hər cür fəlsəfəyə etinasızlıq göstərirdilər. Halbuki əslində fəlsəfə və təbiətşünaslıq sıx əlaqədə və qarşılıqlı təsirdə mövcud olub inkişaf etdiyindən müəyyən, yəni elmin obyektiv məzmununa və inkişaf məntiqinə uyğun olan elmi fəlsəfəyə, əsaslanmadan konkret elmlər, o cümlədən təbiət elmləri müvəffəqiyyətlə inkişaf edə bilməz. Bunu anlamayan və pozitivizmin təsiri altında sözdə hər cür fəlsəfəyə etinasızlıq göstərən təbiətşünaslar əslində son nətcədə çox zaman düşünülmədən təhsil prosesində aldıqları və mövcud kitablardan əxz etdikləri ən mürtəce fəlsəfi baxışların təsiri altına düşürdülər. Bu halı hələ F.Engels çox sərrast ifadə edərək yazmışdı: «Təbiətşünaslar xəyal edirlər ki, fəlsəfəyə etinasızlıq göstərdikləri və ya onu söydükdə fəlsəfədən azad olurlar. Lakin bir halda ki, təfəkkürsüz onlar bir addım da ata bilmirlər, təfəkkür üçün isə məntiqi kateqoriyalar zəruridir, bu kateqoriyaları isə onlar ya elmi deyilən və üzərlərində çoxdan ölüb getmiş fəlsəfi sistemlərin qalıqlarının hökm sürdüyü adamların adi ümumi şüurundan, ya universitetlərdə məcburi dinlənilmiş fəlsəfə kurslarının…. qırıntılarından, ya cürbəcür fəlsəfi əsərləri qeyri-tənqidi və qeyri-müntəzəm surətdə oxumaqdan tənqidsiz olaraq əxz edirlər… deməli, onlar nəticədə hər halda fəlsəfəyə, lakin təəssüf ki, əksəriyyətlə ən pis fəlsəfəyə tabe vəziyyətə düşürlər və fəlsəfəni hamıdan çox söyənlər məhz ən pis fəlsəfi təlimlərin ən pis bayağılaşdırılmış qalıqlarının qulu olurlar. Buna görə də hər bir elm adamı F.Engelsin bu sözlərini möhkəm yadda saxlamalıdır ki, «təbiətşünaslar özlərini necə tuturlarsa tutsunlar, fəlsəfə onlara hakimdir. Məsələ yalnız bundadır ki, onlar dəbdə olan pis bir fəlsəfənin özlərinə hakim olmasını istəyirlər, yoxsa nəzəri təfəkkürün elə bir formasını rəhbər tutmaq istəyirlər ki, o, təfəkkür tarixinə və onun nailiyyətlərinə bələd olmağa əsaslanır» (6, 182).

Deyilənlər aydın göstərir ki, fəlsəfə və təbiətşünaslığın münasibəti məsələsində pozitivist mövqedən çıxış edərək həmin idrak sahələrinin qarşılıqlı əlaqəsi və bir-biri üçün əhəmiyyətinin qiymətlənldirilib nəzərə alınmaması elmin inkişafına ləngidici təsir edərdi. Elmin sonrakı inkişafı göstərir ki, xoşbəxtlikdən o, pozitivistlərin arzularına rəğmən başqa yolla getmişdir. Bunu XIX əsrin sonlarına doğru sürətlə inkişaf edərək təbiət elmlərinin liderinə çevrilən fizikanın nümunəsində aydın görmək olar. Bu halı o dövrün tanınmış fiziklərindən O.D.Xvolson görərək çox aydın ifadə etmişdir. O, pozitivizmin banisi O.Kontun anadan olmasının 100 illiyi münasibətilə fəlsəfə cəmiyyətinin 1898-ci il martın 7-də keçirilən iclasındakı nitqində demişdir ki, fizika «Kontun göstərdiyi yolla getməmişdir, getməməlidir və getməyəcəkdir». O, sözünə davam edərək demişdir ki, fiziklərin yaratdıqları «bütün böyük şeylər… gedilməsi pozitiv fəlsəfənin məsləhət gördüyünə əks olan yolla əldə edilmişdir». O.D.Xvolson sonra pozitivizmin əslində fəlsəfə sistemi olmadığını bildirərək deyirdi ki, fəlsəfəni inkar etmək fəlsəfə deyildir» (11, 137-138). O.D.Xvolsonun sözlərinin

mahiyyətcə düzgün olduğunu qeyd etməklə bunu da demək lazımdır ki, pozitivizm ümumiyyətlə hər cür fəlsəfəni deyil, materialist fəlsəfəni rədd edir, təbiət elmlərini öz təsiri altına almağa, onların nəticələrini öz mənafelərinə uyğun olaraq saxtalaşdırmağa çalışır.

Bunu pozitivizmin ikinci mərhələsi kimi XIX əsrin 70-ci illərində meydana çıxan və öz yaradıcılarından Maxın adı ilə maxizm adlandırılan empiriokritisizm aydın göstərir. XIX-XX əsrlərin qovşağında fizikada materiyanın quruluşu və xassələri haqqında təlimdə baş verən və təbiətşünaslıqda əsil inqilab yaradan bir sıra fundamental kəşflər (rentgen şüalarının, radioaktivliyin, elektronun, işıq təzyiqinin, kvantların, hərəkət sürətindən asılı olaraq kütlənin dəyişilməsinin kəşfi, nisbilik nəzəriyyəsinin yaradılması və s.) sayəsində təbiətşünaslığın liderinə çevrilmiş fizikanın fəlsəfi məsələlərinə diqqəti artırmışdı. Ümumi dünyagörüşü xarakteri daşıyan həmin məsələləri fəlsəfəyə müraciət etmədən, onun köməyi olmadan həll etmək olmazdı. Fizikanın həmin nailiyyətləri həlli yalnız fəlsəfənin köməyilə mümkün olan bir sıra qnoseologiya məsələlərini irəli sürmüşdü. Elmin tərəqqisi ilə irəli sürülən və onun sonrakı inkişafı üçün həlli zəruri olan dünyagörüşü xarakterli həmin məsələləri yalnız o halda həll etmək olardı ki, tədqiqatçı müəyyən – fəlsəfədə mövcud olan materialist yaxud idealist mövqedə dursun və məsələni həmin nöqteyi-nəzərlərdən birinin mövqeyindən həll etməyə çalışsın.

O zaman təbiətşünasların böyük əksəriyyətinin əsas tutduqları metafizik materializm mövqeyindən həmin kəşflərin həqiqi mahiyyətini açmaq və düzgün fəlsəfi şərhini vermək mümkün deyildi. Həmin mövqedən fizikanın qeyd etdiyimiz kəşflərinin mahiyyətinin açıla bilməməsi təbiətşünaslığın inkişafı yolunda aradan qaldırıla bilinməməsi ciddi metodoloji çətinliklərə səbəb oldu. Qeyd olunan kəşflərin mahiyyətini açmağın və irəli sürdüyü nəzəri-idrak məsələlərinin əsas tutduqları metafizik mövqedən həll etməyin mümkün olmaması elmin inkişafında metodoloji çətinliklərə gətirib çıxartdı. Həmin çətinliklərin aradan qaldırılmaması fizikada metodoloji böhrana səbəb olmuşdu.

Elm və fəlsəfənin inkişafı yolunda yaranmış bu şəraitdə pozitivizmin ikinci tarixi forması olan empiriokritisizm istifadə etdi. Öz banilərindən Ernst Maxın (1838-1916) adı ilə adlanan maxizm öz fəlsəfəsini həm materializm, həm də idealizmdən yüksəkdə duran bitərəf, üçüncü xətt kimi qələmə verməyə çalışırdı. Halbuki o, əslində ingilis subyektiv idealisti C.Berklinin baxışlarının davamı idi. Məlum olduğu kimi, C.Berkli «mövcud olmaq – qavranılmaq deməkdir» kimi iddianı irəli sürməklə şeyləri duyğu kompleksləri saymışdır. Öz sələfi C.Berklinin ardınca gedərək «duyğu» sözünü «element» sözü ilə əvəz edərək şeyləri dünya elementlərinin kompleksi, kombinasiyaları adlandırmaqla öz fəlsəfəsini orijinal fəlsəfə kimi qələmə verən Maxın baxışları xalis subyektiv idealizmdir.

Fəlsəfə və təbiətşünaslığın qarşılıqlı əlaqəsini rədd edən Kontçu sələflərindən fərqli olaraq maxistlər həmin bilik sahələrinin əlaqəsini qəbul edərək özlərinin elmlə bağlılığını bildirir, fizikadakı ən yeni kəşflərin fəlsəfi mənasını

açmağa girişərək həmin kəşflərin onların obyektiv məzmununa zidd olan idealizm ruhunda şərh edirdilər.

Məlumdur ki, XIX əsrin sonlarınadək materiyaya metafizik-mexaniki baxışlar hökm sürmüşdür. Həmin baxışa görə, materiyanın bünövrəsində hələ qədim atomistlərin (Levkipp və Demokritin) irəli sürdüyü ən kiçicik , dəyişməz və bölünməz atomlar durur. Radioaktivliyin (1896-cı il) və elektronun kəşfi (1897-ci il) göstərdi ki, atomlar mürəkkəb və dəyitşkən olub bir-birinə çevrilirlər. Atomlar haqqında mövcud olan əvvəlki metafizik təsəvvürlər mövqeyindən çıxış edən magistlər materiyanın quruluşu və xassələri haqqında uzun illərdən bəri mövcud olan təsəvvürlərin aradan qalxmasını fəlsəfi kateqoriya olan materiyanın «yox olaraq» aradan qalxması kimi şərh edərək yeni kəşflərin mərkəzi anlayışı materiya olan materializmi təkzib etməsi kimi şərh etdilər. Bu barədə maraqlananları əvvəllər dərc olunmuş işlərimizə (8) yönəldərək qısaca olaraq aşağıdakıları qeyd etməklə kifayətlənirik.

Max və ardıcılları adını çəkdiyimiz kəşflərin mahiyyətini təhrif edərək özlərinin maxist (empiriokritik) fəlsəfələrini müasiri olduqları təbiətşünaslığın yeganə, həqiqi fəlsəfəsi kimi qələmə verirdilər.

Təbiətşünaslığın inkişafı yolunda yaranmış belə bir şəraitdə ən yeni kəşfləri yalnız onların obyektiv məzmununa uyğun gələn materialist fəlsəfə mövqeyindən düzgün təhlil etmək, ümumiləşdirmək olardı. O dövrdə təbiətşünasların böyük əksəriyyətinin dünyagörüşünə hakim olan metafizik-mexaniki materializm mövqeyindən bunu etmək mımkün deyildi. Çünki hələ F.Engelsin qeyd etdiyi kimi, təbiətşünaslıq sahəsində baş verən hər bir mühüm kəşflə materiailmzin almalı olduğu belə forma isə artıq XIX əsrin ortalarında K.Marks və F.Engels tərəfindən yaradılan, lakin XIX-XX əsrlərin qovşağında fəaliyyət göstərən təbiətşünasların tanış olmadıqları dialektik materializm fəlsəfəsi idi. Məhz bu fəlsəfə mövqeyindən çıxış edərək V.İ.Lenin maxizmin tənqidinə həsr olunmuş «Materializm və empiriokritisizm» əsərində təbiətşünaslığın qeyd etdiyimiz mühüm nailiyyətlərini dialektik-materialistcəsinə təhlil edərək göstərdi ki, materiyanın fəlsəfi anlayışı və onun haqqındakı təbii-elmi təsəvvürlər müxtəlif məsələlərdir və buna görə də onları eyniləşdirmək olmaz. Materiyanın fəlsəfi anlayışı qnoseoloji kateqoriya olub onun obyektiv reallıq olmaq xassəsini ifadə edir: «Materiya insana onun öz duyğusu ilə verilən, duyğularımızdan asılı olmayaraqmövcud olan və duyğularımızla surəti alınan, şəkli alınan, əks olunan obyektiv reallığı göstərmək üçün fəlsəfi bir kateqoriyadır» (13, 137). Maxizmin təbiətşünaslıq ilə fəlsəfənin münasibətinə dair baxışlarının təhlili göstərir ki, öz sələfləri kimi o da ümumiyyətlə fəlsəfəni deyil, ancaq materialist fəlsəfəni rədd edir, subyektiv idealizm olan öz fəlsəfələrini müasir olduqları təbiətşünaslığın fəlsəfəsi kimi qələmə verirdi. Bu da bir daha göstərir ki, pozitivizmin ilk forması olan kontizm kimi, empiriokritizsizm də ümumiyyətlə fəlsəfəni deyil, materialist fəlsəfəni, onun elm üçün əhəmiyyətini rədd edir, təbiət elmlərini öz idealist fəlsəfələrinin təsiri altına almağa, onların nəticələrini öz mənafelərinə uyğun olaraq saxtalaşdırmağa çalışırdı. Bunu pozitivizmin inkişafında empiriokri-

tisizmdən (maxizmdən) sonra gələn «üçüncü pozitivisizm» - neopozitivizm daha aydın göstərir.

XX əsrin 20-ci illərində meydana gələn bu təlimin nümayəndələrinin onun analitik fəlsəfə, məntiqi pozitivizm, semantik fəlsəfə, linqvistik təhlil və s. kimi qollarını yaradaraq onları inkişaf etdirməsi göstərir ki, elmin fəlsəfəyə ehtiyacı vardır və ona pozitivistcəsinə bəslənən nihilist münasibət əsassızdır. Öz sələflərindən fərqli olaraq onun nümayəndələri xüsusi elmlərin, o cümlədən təbiətşünaslığın fəlsəfəyə ehtiyacı olduğunu, müasir elmlə fəlsəfə arasında sıx əlaqə olduğunu etiraf edir və xüsusi «elm fəlsəfəsini» yaratmağa çalışırdılar. Həm də bu zaman onlar maxist ənənələrini davam etdirərək öz fəlsəfələrini materializm və idealizmin «birtərəfliliyindən» yüksək duran üçüncü xətt kimi qələmə verməyə çalışdılar. Bunun neopozitivizmin nümayəndələrindən F.Frankın nümunəsində aydın görmək olar. o, elm ilə fəlsəfə arasındakı əlaqəyə həsr etdiyi «Elm fəlsəfəsi» adlı kitabında mahiyyətcə düzgün olan belə fikri söyləyir ki, «biz həqiqi elmə dərindən nüfuz etdikcə onun fəlsəfə ilə əlaqəsi bir o qədər aydın olur» (15, 38). Lakin fəlsəfənin təbiət elmləri üçün əhəmiyyətini qeyd edən F.Frank bütün səylərini elmi idealist fəlsəfənin müttəfiqinə çevirməyə, onu elmi fəlsəfə ilə bağlayan telləri qırmağa yönəldirdi.

Çox zaman pozitivizmin müasir ardıcılları kimi çıxış edən və materializmə nifrət bəsləyən filosoflar hamıya məlum faktları saxtalaşdıraraq sübut etməyə çalışırlar ki, materializm və onun nümayəndələri elmə heç nə verməmişdir. Məsələn, neopozitivizmin meydana gəlməsində böyük rolu olan analitik fəlsəfənin banilərindən Bertran Rassel (1872-1970) «Elmin cəmiyyətə təsiri» kitabında inandırmağa çalışırdı ki, bəşəriyyətin əqli və əxlaqi tərəqqisinin əsasını təşkil edən qiymətli nə varsa, onların hamısı idealistlərin əsərlərində verilmişdir. Əslində isə elmin çoxəsrlik inkişaf tarixi göstərir ki, materializm elmi idrakın tərəqqisinə çox böyük kömək etmişdir və etməkdədir.

Hətta, idealist mövqedə duran görkəmli təbiətşünaslar elmi zənginləşdirən mühüm kəşflər etdikdə bunu idealist, metafizik fəlsəfəyə rəğmən edirlər; bu zaman onlar özlərinin konkret ixtisasları sahəsində şüurlu olmasa da kortəbii materializm və dialektika mövqeyindən çıxış etmişlər və edirlər. Əslində başqa cür ola da bilməz. Ona görə ki, təbiətin hər hansı sahəsini öyrənməyə girişən istənilən təbiətşünas alim bu zaman materialist və dialektik kimi çıxış etməli olur, yəni o, əvvəlcədən öyrəndiyi obyektin obyektiv-real mövcudluğuna inanmalıdır. İkincisi, tədqiqatçı öyrəndiyi obyekt haqqında həqiqi, tam biliyi onu olduğu kimi, yəni əbədi dəyişmə, hərəkət və inkişafda, başqaları ilə qarşılıqlı əlaqədə və təsirdə götürməklə, başqa sözlə, ona dialektikcəsinə yanaşmaqla əldə edə bilər. Bütün bunlar təbii-elmi idrakın ilkin şərtidir və bütün görkəmli təbiətşünaslar tərəfindən qəbul və etiraf olunmuşdur. Məsələn, görkəmli alman fiziki, kvant mexanikasının yaradıcılarından M.Plank xarici aləmin reallığının qəbul olunmasına «hər cür elmi tədqiqatın əsas ilkin şərti» kimi baxmışdır. (20, 108) Tədqiqat obyektlərinin obyektiv reallığının qəbul olunmasına özlüyündə aydın olan bir hal kimi baxan görkəmli təbiətşünasmların nöqteyi-nəzərini ifadə

edərək böyük rus təbiətşünas alimi V.İ.Bernadski yazmışdır: «Hər cür elmi işin əsasında elmin öyrəndiyi predmetin reallığı haqqında – dünyanın və onun qanunauyğunluqlarının reallığı haqqında aksiomatik müddəa durur… yalnız bu müddəa qəbul edildikdə insan üçün elmi iş mümkün və əlverişli olur. Bu aksiomatik müddəaya şübhə edildikdə elmi iş ondan ötrü öz əhəmiyyətini itirir və o, elmi işi atır» (4, 107). XX əsrin A.Eynşteyn, M.Plank, M.Born kimi görkəmli fizikləri də xarici aləmin obyektiv reallığını özlüyündə aydın olan bir şey saymışlar. Onların bu nöqteyi-nəzərini sərrast və yığcam ifadə edərək fransız fiziki A.Tonnela yazmışdır: «Xarici aləmin şüurumuzdan asılı olmayan obyektivliyi hər bir fizikin qəbul etdiyi postulatdır» (16, 135).

Pozitivizm uzun müddət bir çox görkəmli təbiətşünasların dünyagörüşünə təsir etmiş və onlar çox vaxt öz konkret elmi nailiyyətlərinin obyektiv məzmununa rəğmən həmin fəlsəfənin təsiri altında olmuşdur. Lakin uzun müddət həmin təsir altında olan bəzi görkəmli təbiətşünaslar onun səhv olduğunu başa düşərək öz elmlərinin obyektiv məzmununa uyğun olan materializm mövqeyinə keçmişlər. Bu cəhətdən maddə hissəciklərinin (elektronun) korpuskulyarlıqla yanaşı dalğa təbiətinə də malik olduğunu kəşf edən görkəmli fransız fiziki Lui de Broylun mövqeyi səciyyəvidir. 25 il ərzində kvant mexanikasının mikroaləmdə indeterminizmin hökm sürməsi haqqında pozitivist konsepsiyasını qəbul etsə də o, sonradan bunun səhv olduğunu başa düşüb ondan əl çəkərək bildirirdi ki, Kopenhagen məktəbinin pozitivist interpretasiyası «məntiqi cəhətdən, fəlsəfi mənada subyektivizmə gətirib çıxarır və müşahidəçidən asılı olmayan fiziki reallığın inkar edilməsinə can atır… subyektivist şərh həmişə onda (fizikada – K.V.) ağır təəssürat yaradacaq və mən düşünürəm ki, son nəticədə o, ondan xilas olmaqla xoşbəxt olacaqdır» (14, 31). Eynilə kvant mexanikasının pozitivizm mövqeyindən çıxış edən baniləri N.Bor, V.Heyzenberq elementar hissəciklərin kopuskulyar-dalğa xassələrinin, ümumiyyətlə mikroobyektlərin obyektiv olmayıb onların öyrənilməsi məqsədi ilə tətbiq olunan cihazlar tərəfindən yaradıldığını söyləyirdilər. Lakin sonralar bu mövqedən çıxış edən N.Bor həmin pozitivist baxışlarından əl çəkərək mikrohissəciklərin obyektiv mövcudluğunu qəbul etmişdir.

Deyilənlər göstərir ki , həm naturfəlsəfə, həm də pozitivizm fəlsəfə və xüsusi elmlərin həqiqi münasibətini anlamayaraq onu təhrif edir. Əgər naturfəlsəfə xüsusi elmlərə nəzərən fəlsəfənin üstünlüyünü iddia edir və bununla da idrak prosesində elmin rolunu azaldırdısa, pozitivizm bunun əksinə olaraq, fəlsəfənin rolunu yalnız inkar etmək deyil, faktiki olaraq onu müstəqil elm kimi inkar etməyə cəlib çıxartdı. Gürcü filosofu prof. S.M.Avalianinin qeyd etdiyi kimi, fəlsəfə və xüsusi elmlərin münasibətinə həm filosof, həm də təbiətşünaslar arasında yayılmış pozitivist baxış yalnız səhv və zərərli deyil, habelə sadəlövh və əsassız saymaq lazımdır. Əslində fəlsəfəni inkar etmək heç olmazsa, ona görə mümkün deyildir ki, fəlsəfəni inkar etməyin özü fəlsəfədir; fəlsəfəni inkar edənin özü filosofluq edir, bununla da fəlsəfənin zəruriliyini, onu inkar etməyin mümkünsüzlüyünü təsdiq edir. Beləliklə, fəlsəfəni hər cür inkar etmək cəhdi

iflasa məhkumdur» (1, 16).

Fəlsəfə və təbiətşünaslığın inkişaf tarixi göstərir ki, bu bilik sahələri pozitivistlərin iddialırının əksinə olaraq, qarşılıqlı əlaqədə və təsirdə olmuşlar. Dövrün təbii-elmi biliklərinin nailiyyətlərinə uyğun inkişaf edən fəlsəfə öz növbəsində təbiətşünaslığın tinkişafına əks təsir göstərmişdir. İnsan idrakının nəticələrini şərh edib ümumiləşdirməyə çalışan fəlsəfə təbiətin tədqiqi üçün əhəmiyyətli olan bir sıra rəhbər ideyalar irəli sürmüşdür. Belə ideyalara misal olaraq materiyanın atom quruluşu haqqında təlimi, heç nəyin heçdən yaranmaması və heçə çevrilərək yox olmaması, materiya və hərəkətin ayrılmazlığı və saxlanması, hər şeyin əbədi hərəkətdə və dəyişmədə olması haqqında Heraklitin fikrini, dünyanın hüdudsuzluğu və dünyaların saysız-hesabsız olması haqqında C.Brunonun təlimini, hərəkətin kəmiyyətcə məhvedilməzliyi və saxlanması haqqında R.Dekartın baxışlarını, Nyutonun mütləq məkan və zaman haqqındakı baxışlarını, leybnisin bunun əksinə olan məkan və zamanın nisbiliyi, materiyasız ağlasığmaz olması fikrini, dialektik materializm fəlsəfəsində irəli sürülən materiya, hərəkət, məkan və zamanın vəhdəti, materiyanın tükənməzliyi ideyalarını və s. göstərmək olar.

Fəlsəfə və təbiət elmlərinin qarşılıqlı münasibətini belə bir faktdan aydın görmək olar ki, təbiət elmlərinin, onlar içərisində mühüm yer tutan fizikanın klassik dövrünün görkəmli nümayəndələrinin yaradıcılığında təbiətşünaslıq problemləri fəlsəfi problemlərlə çulğaşmışdır. Məhz bu cəhəti nəzərdə tutaraq XX əsrin görkəmli alimlərindən akad. S.İ.Vavilov yazmışdır: «Fizikanın məzmununun, faktları və qanunlarının xeyli hissəsinin çox böyük ümumiliyi onu lap qədimdən fəlsəfə ilə, xüsusilə idrak nəzəriyyəsi sahəsində yaxınlaşdırmışdır. Qədimdə demək olar ki, istinasız olaraq hər bir fizik eyni zamanda filosof olmuşdur. Bu zaman təsir qarşılıqlı və çox qüvvətli idi. Fizika və fəlsəfənin əlaqəsi min illərlə davam etmiş və o, müasir şəraitdə də qalır. Fəlsəfə və fizika Qaliley, Qassendi, Dekart, Kepler, Nyuton, Lomonosov, Mendeleyev, Umov, Plank, Eynşteyn və ümumiyyətlə, geniş dünyagörüşlü bütün fiziklərin elmi fəaliyyətlərində ayrılmaz surətdə çulğaşmışdır» (2, 83).

Bunu eynilə S.İ.Vavilovun özü barəsində, habelə XX əsrin N.Bor, P.Lanjeven, M.Born, V.Heyzenberq, Lui de Broyl, V.A.Fok, M.A,Markov və bir çox başqalarının fizikləri haqqında, həm də daha artıq əsasla demək olar. Məsələn, N.Bor fəlsəfə ilə o qədər bağlı olmuşdur ki, V.Heyzenberq onu «fizik deyil, hər şeydən əvvəl, filosof» adlandırmışdır (12,6).

Fəlsəfə və təbiətşünaslığın əlaqəsini və bunun həmin idrak sahələrinin hər ikisi üçün əhəmiyyətini dərindən başa düşən XX əsr fizikasının baniləri öz elmlərinin zirvəsindən onun qnoseoloji və metodoloji əsaslarının işlənməsinə ciddi əhəmiyyət vermiş və bu işdə fəlsəfənin rolunu yüksək qiymətləndirmişlər. Məsələn, fəlsəfə ilə təbiətşünaslığın münasibətinin tarixini izləyən Maks Plank bu nəticəyə gəlmişdir ki, «təbiət elmləri fəlsəfə olmadan keçinə bilməz» (23, 199). Öz növbəsində təbiətşünaslıq da fəlsəfə qarşısında borclu qalmayaraq onun təbii-elmi əsası kimi çıxış edir, sonuncusunun ayrı-ayrı müddəalarını

əsaslandırır və ona öz inkişafının zəruri şərtlərindən olmaqla nəzəri ümumiləşdirmələr etməsi, materiyanın hərəkəti və inkişafının ümumi qanunauyğunluqlarını açması, öz nəzəri müddəalarını əsaslandırması və konkretləşdiriməsi, habelə öz kateqoriyaları və qanunlarının, idrak nəzəriyyəsinin məzmununu inkişaf etdirib zənginləşdirməsi üçün canlı qida rolunu oynayan yeni-yeni faktlar verir.

## ƏDƏBİYYAT


1.Авалиани С.Ш. Предмет марксистской онтологии. Сб., О предмете философии. Тбилиси: Мецниереба, 1973, 163 с.

2. Вавилов С.И. Ленин и физика. М.: АН СССР, 1960, 95 с.

3. Вернадский В.И. Труды по философии естествознания. М.: 2000, 334 с.

4. «Вопросы философии», №5, 1963.

5. Дюгем П. Физическая теория. Ее цель и строение. СПб., 1910, 326 с.

6. Engels F. Təbiətin dialektikası. Bakı: Azərnəşr, 1966, 359 s.

7. Kərimov V.M. V.İ.Lenin və müasir fizikanın bəzi filsəfi məsələləri. Bakı: Elm, 1983, 253 s.

8. Kərimov V.M. Fəlsəfədə və təbiətşünaslıqda varlıq və materiya problemi. Bakı: Təhsil, HTM nəşriyyatı, 2003, 486 s.

9.Kərimov V.M. Fəlsəfə və təbiətşünaslığın münasibətinin naturfəlsəfi anlamı. BDU-nun xəbərləri. Sosial-siyasi elmlər seriyası. №3, 2010, s.97-117.

10. Kərimov V.M. Fəlsəfə və təbiətşünaslığın qarşılıqlı əlaqəsinin dialektik-materialist anlamı. Orada, №1, 2012, s.120-127.

11. Конт О. Курс положительной философии. Т.II. Философия физики. С.Петербург: 1900, 302 с.

12. Гейзенберг В. Квантовая теория и ее интерпретация. «Нильс Бор. Жизнь и творчество». Сборник статей. М.: Наука, 1967, 344 с.

13. Lenin V.İ. Materializm və empiriokritisizm. ƏTK, c.18, Bakı: 1979, 547 s.

14. Луи де Бройль. Останется ли квантовая физика индетерминистской? Сб.: «Вопросы причинности в квантовой механике. М.: ИЛ, 1959, 234 с.

15. Франк Ф. Философия науки. М.: ИЛ, 1960, 542 с.

16. Эйнштейнский сборник. М.: 1966, 335 с.

17. Пахомов Б.Я. Становление современной физической картины мира. М.: Мысль, 1985, 262 с.

18. Павлов А.М. К истории философского образования в Московском университете. Вестник Московского Университета. Серия 7. Философия. №1, 2013, с.100-113.

19. Павлов П. Избранные произведения. Госполитиздат, 1949, 568 с.

20. Планк М. Смысл и границы точной науки. «Вопросы философии», №5, 1958.

21. Пуанкаре А. Наука и гипотеза. СПб.: 1904, 263 с.

22. Позитивизм и наука. М.: Наука, 1975, 245 с.

23. «Успехи физических наук», М.: 1926, т. III, вып.3.

24. Зоммерфельд А.Р. Пути познания в физике. М.: 1973, 318 с.

25. Зотов А.Ф. Мельвилл Ю.К. Буржуазная философия середины XIX – начала XX веков. М.: Высшая школа, 1988, 520 с.

## ПОЗИТИВИСТСКОЕ ПОНИМАНИЕ ВЗАИМООТНОШЕНИЯ ФИЛОСОФИИ И ЕСТЕСТВОЗНАНИЯ

**В.М.КЕРИМОВ**


### РЕЗЮМЕ

В статье раскрывается сущность и критически анализируется позитивистское понимания взаимоотношения философии и естествознания. Показывается, что эти области знания находятся и развивается во взаимодействии друг с другом. Оно имеет объективное основание, которое является общностью их объекта исследования: и философия, и естествознание исследует природу.

В работе также критически рассматриваются исторические формы позитивизма: когнитизм, махизм и неопозитивизм. Автор приходит к выводу о том, что и философия, и естествознания могут успешно развиваться в условиях их взаимосвязи и взимодействия друг с другом.


**Ключевые слова:** философия, естествознание, взаимосвязь позивитизм, конгизм, махизм, неопозитивизм, диалектико-материалистическое понимание

## POSITIVIST UNDERSTANDING OF INTERRELATION OF PHILOSOPHY AND NATURE SCIENCE

**V.M.KARIMOV**


### SUMMARY

The article reveals the essence and critically analyzes positivist understanding of interrelation of Philosophy and Natural Scinence et is shown, that these areas of science develop in interaction with each other. They have an objective basic that is their common object of study both, Philosophy and Nature Science in investigate nature.

The work critically studies the historical forms of positivism as contism, makhism and neopositivism. The author comes to the conclusion that Philosophy and Nature Science can successfully develop only in the conditions of interaction with each other.


**Key words:** philosophy, nature science, intercommunication, positivism, kontism, makhism, neopositivism, dialectical-materialistical understanding